**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№282/1** **5 dekabr 2016-cı il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planı barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə və "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)" uyğun olaraq, habelə Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 8.9-cu "2017-ci il üçün Auditorlar Palatasının iş planının hazırlanması" bəndinin icrası ilə bağlı tərtib edilmiş Auditorlar Palatasının 2017-ci il üzrə iş planının layihəsini müzakirə edərək, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və struktur bölmələrin rəhbərlərinə (M.Abbasov, S.Gülməmmədov, V.Rəhimov, Y.Namazəliyev, R.Cəfərli, M.Hüseynova) tapşırılsın ki:

- təsdiq edilmiş iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər;
- iş planında müvafiq işlər üzrə plan-proqramları və qrafikləri 2016-cı il 26 dekabr tarixinədək təqdim etsinlər.

3. Palatanın Şurası yanında Komitələrin rəhbərlərinə tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının 2017-ci il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.

4. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) tapşırılsın ki, Auditorlar Palatasının 2017-ci il üzrə iş planına uyğun olaraq Palata Şurasının 2017-ci il üzrə iş planını hazırlayıb Şuranın növbəti iclasında müzakirə olunmaq üçün təqdim etsinlər.

5. Auditorlar Palatasının Aparatına (Q.Bayramov, N.Talıbov, F.Qarayev) və Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov, T.Əmiraslanov) tapşırılsın ki, Azərbaycan Respublikası Auditorlar Palatasının və onun Şurasının 2017-ci il üzrə iş planlarının Azərbaycan, rus və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**